United Nations Development Programme

UNDP Azerbaijan

**28 dekabr 2018-ci il**

**"SİNAM" Məhdud Məsuliyyətli**
**Cəmiyyətinin direktoru cənab**
**Əbülfət Rəhmənova**

Azərbaycanın Xüsusi Mühafizə Olunan Təbiət Ərazilərinin Tərkibindəki Sahilyanı Ekoloji Sistemlərdə "SERP" proqram təminatını tətbiqinə dair

RƏY MƏKTUBU

"Azərbaycanın Xüsusi Mühafizə Olunan Təbiət Ərazilərinin Tərkibindəki Sahilyanı Ekoloji Sistemlərdə İdarəetmənin Təkmilləşdirilməsi" layihəsi çərçivəsində Birləşmiş Millətlər Təşkilatı İnkişaf Proqramı ilə SİNAM MMC arasında Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Bioloji Müxtəlifliyin Qorunması və Xüsusi Mühafizə Olunan Təbiət Ərazilərinin İnkişafı Departamenti və departamentin tabe qürumları olan Abşeron, Qızılağac, Şirvan, Samur-Yalama Milli Parkları ilə SERP (Müəssisə Resurslarının İdarə Edilməsi) ERP proqram təminatının tətbiqi üzrə müqavilə imzalanmışdır.

Müqavilə çərçivəsində SİNAM MMC adları çəkilən qurumların insan resursları və mühasibat məlumatlarının SERP sisteminə köçürülməsini uğurla həyata keçirmişdir. Daha sonra həmin təşkilatların mühasiblərinə təlimlər keçirilmiş və SERP PT-nın İnsan Resurslar və Əmək Haqqı funksionallıqları üzrə həm nəzəri, həm də praktiki bacarıqları artırılmışdır. Təlimlər zamanı mühasiblərə Əmək Məcəlləsi haqqında məlumat verilib və gündəlik iş prosesində qarşılaşan aktual problemlər müzakirə olunmuşdur. Təlimlər həm test, həm də iştirakçı təşkilatların real baza məlumatlarına əsaslanır. Bu müddət ərzində mühasibat uçotunda baş vermiş ən son yeniliklər barəsində təşkilatlara məlumat verilərək sistemdən hesabatların alınması izah olunmuşdur.

Müqavilə dövrü ərzində SİNAM MMC öhdəliklərini tam və dəqiq yerinə yetirmişdir. Mühasiblərə təlimlərdən sonra proqram istifadəsi zamanı yaranmış məsələlərin həllində dəstək göstərmişdir. Layihə rəhbəri, eləcə də təlim iştirakçıları, SİNAM MMC tərəfindən görülən işlər barəsində müsbət rəylər söyləmiş və əməkdaşlığın davam etdirilməsində maraqlı olduqlarını bildirmişlər.

Birləşmiş Millətlər Təşkilatı İnkişaf Proqramı SİNAM MMC ilə əməkdaşlığı yüksək qiymətləndirir və gələcək işlərində uğurlar diləyir.

Hörmətlə,

Tamirlan Qasımov
Layihə Rəhbəri